# DİYƏ

**Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gülə-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.**

Böyük qardaşı Turalın tam əksinə, dalaşmağa meylli, "qabağından yeməyən", tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir təpik atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.

Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə çox dəhşətli bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Bu hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Hadisədən çox gec xəbər tutulduğundan hadisə yerində də kimsə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə, qatilin kim olmasına aydınlıq gətirə bilmirdi. Bunun əvəzinə, gündə bir şayiə yayılırdı.

Bu hadisədən bir neçə həftə sonra kənddə yaşayan imkanlı bir ailə gecəykən hamıdan xəbərsiz, qəflətən kənddən, hətta yaxın qohumlarının da bilmədiyi naməlum, başqa bir yerə köçüb getdilər. Əvvəlcə bu köç heç kimin diqqətini cəlb etməsə də, çox keçmədən kənddə dedi-qodu başladı. Bu köçün Turalın qardaşının qətli ilə əlaqəli olması haqda şayiələr yayıldı.

Əslində, bu şayələrdə müəyyən əsaslar da var idi. Çünki bu ailədə də çox nadinc, ərköyün, özünü bəyənmiş, dalaşqan, az qala gündə bir xoşagəlməz hadisə törədən, Turalın qardaşı ilə eyni yaşda olan bir oğlan uşağı var idi. Onun haqqında tanıyanlar "gora sağlam baş aparmayacaq" deyirdilər. Onun tez-tez yoldaşları ilə dalaşdığı, zorakılığa meylli olduğu, yaşının az olmasına baxmayaraq, içkiyə meyl saldığı hamıya məlum idi. Hadisədən qabaq bu uşaqla Turalın qardaşı arasında qız üstündə çəkişmə olması ilə bağlı xəbərlər dolaşırdı. Guya hər ikisi eyni bir qızla yaxın münasibət saxlamağa cəhd edirmiş.

Yavaş-yavaş Turalgilin ailəsi də qatilin məhz həmin oğlan olduğuna inanmağa başladı və hətta bir az da irəli gedərək, qatilin məhz həmin ailəninin uşağı olması ilə bağlı şübhələrini işi aparan müstəntiqə bildirdilər. Müstəntiq həmin ailənin hara getməsi haqqında heç bir məlumatın olmaması və onların övladlarının bu qətldə iştirakı ilə bağlı bir şahidin və ya dəlil-sübut olmamasını əsas gətirərək, Turalgilin ailəsinin ehtimalına diqqət etməmişdi. Beləliklə, bu iş rəsmi olaraq açılmamış cinayət işi kimi rəfə qaldırılmışdı. Amma kənddə söz-sohbət kəsilmir, müstəntiqin həmin ailədən rüşvət alıb, cinayəti gizlətməsi ilə bağlı fikirlər dolaşmağa başlamışdı.

Turalın atası dindar şəxs idi. Başına gələn hər bir işi Allahın yazdığı qismət kimi qəbul edir, hər addımını dinin tələblərinə uyğun atmağa cəhd edirdi. Oğlunun qətli ilə bağlı "Hökümət bir tədbir görməsə də, Allah günahkarı cəzasız buraxmaz", - deyə özünə təsəlli verirdi. Özü bu qətli müstəqil şəkildə araşdırmağı qərara alsa da, heç bir iş görə bilməmişdi.

Kənddən köçən ailənin hara və nə üçün qəflətən köçməsi ilə bağlı heç kimdə az da olsa bir məlumat yox idi. Hətta onların qohumları da bu cür köçlə bağlı bir fikrə malik deyildilər. Elə bil, bu kənddə belə bir ailə əzəldən olmamışdı. Turalın atası həmin ailə üzvlərinin ad və soyadları əsasında resbublika səviyyəsində axtarış versə də, heç bir nəticə alınmamışdı. Artıq kənddə hamıda bir və eyni fikir formalaşmışdı. Qatil kənddən qaçan ailənin nadinc oğlu idi.

İllər keçir, amma Turalgilin ailəsinin qatil axtarma çabası davam edirdi. Turalın atası hər işdə Qurani-Kərimi rəhbər tuturdu. O bilirdi ki, Quran qisas tələb edir. Buna görə, bir gün Turalı yanına çağırdı. Ona qardaşının qisasını alması üçün həmin ailəni axtarıb tapmasını və qardaşının qanını yerdə qoymamasını vəsiyyət etdi. Tural başını aşağı salıb nə hə, nə yox dedi. Bir tərəfdən qardaşının qatilinin cəzasız qalması onun da ruhunu incidirdi, həm də kənddə hamı onlara qınaqla baxır, sanki "qanları yerdə qaldı, qeyrətləri olsa intiqamlarını alarlar, müstəntiq rüşvətlə bir cavanın qanını batırdı, heç olmasa ailəsi özünün qisasın alsın", - deyə məsləhətlər verirdilər. Digər tərəfdən, Tural o qədər mərhəmətli, rəhmdil, ürəyiyumşaq, romantik təbiətli biri idi ki, nəinki adam öldürməyə, heç bir qarışqanı belə, əzməyə ürək etməzdi.

> İllər keçir, amma Turalgilin ailəsinin qatil axtarma çabası davam edirdi. Turalın atası hər işdə Qurani-Kərimi rəhbər tuturdu. O bilirdi ki, Quran qisas tələb edir. Buna görə, bir gün Turalı yanına çağırdı. Ona qardaşının qisasını alması üçün həmin ailəni axtarıb tapmasını və qardaşının qanını yerdə qoymamasını vəsiyyət etdi. Tural başını aşağı salıb nə hə, nə yox dedi...

Vaxt sürətlə axıb keçirdi. Tural artıq ali təhsil almaq üçün sənədlərini dövlət universitetinin hüquq fakultəsinə vermişdi. O, bu fakultəni təsadüfən seçməmişdi. Hüquq kitablarından bilirdi ki, cəzanın bir funksiyası da əvəzçıxma, yəni qisasdır. Sadəcə hüquqi cəza cəmiyyət adından həyata keçirilən bir qisasdan başqa bir şey deyil. Tural belə qisası düzgün hesab edirdi. Təklikdə yox, bütün cəmiyyətlə qardaşının qisasını almaq, cinayətkarı ədalət məhkəməsində mühakimə edib qanunla cəzalandırmaq daha ədalətli olardı. Düşünmüşdü ki, o, qatil kimi davrana bilməz, günahkar yalnız qanunla cəzalanmalıdır. Yəni qardaşının qisasını o, yox, qanunlar almalıdır. Buna görə də, bütün ümidləri qanun aliliyinə, hüququn, ədalətin gec-tez zəfər çalmasına idi. O, bu fikirlərini bir neçə dəfə ailə daxilində səsləndirsə də, atası ancaq özünün qisas almasının doğru olduğunu, kənd camaatının qınagından yalnız bu yolla xilas ola biləcəklərini deyərək, bir daha Turalı qardaşının qisasını almağa həvəsləndirməyə cəhd etmişdi.

Turalın anası atasından fərqli düşünürdü. İndi onun tək bir oğlu var idi. Ürəyi şəhadət vermirdi ki, bu oğlu da qatil olub, həbsxanada çürüsün. O da Tural kimi cəzanı dövlətin verməli olduğunu daha düzgün hesab edir və bunun sərfəli olduğunu düşünürdü. Hətta xəlvətdə Turalı atasının tapşırığını yerinə yetirməkdən çəkindirmişdi də. Bu da Turalın mövqeyini bir daha möhkəmləndirmişdi.

Tural zorakılığa zorla cavab verilməsinin zəncirvari qan düşmənçiliyinə səbəb olacağını kitablardan oxumuşdu. Ona görə, atasına "baş üstə" desə də, özündə heç vaxt özü qatil üzərində məhkəmə qurub, onu özü bildiyi kimi öldürməyəcəyinə and içmişdi.

Hadisənin baş verdiyi vaxt Tural çox kiçik olduğundan və şübhə gedən ailənin heç bir üzvünü tanımadığından, bu işin mümkün olmayacağını da bilirdi. Əlində qatil hesab edilən oğlanın də heç bir şəkil belə, yox idi. Günün günorta çağı qatillə rastlaşsa belə, onsuz da onu tanımayacaqdı. Ünvanları da yox idi. Hətta şübhəli ailənin başqa bir ölkəyə köçüb getmələri ilə bağlı ehtimallar da var idi.

Bu sonuncu xəbər Turalı xeyli sakitləşdirirdi, sanki ağır bir yük altında əzilməkdən xilas olurdu. İlk dəfə bu xəbəri eşidəndə dərindən nəfəs aldı, sanki qardaşının intiqamını almaq öhdəliyindən xilas oldu. "Bəli, yəqin onlar bizim ölkədən başqa ökəyə koçüblər, hətta ola bilsin qatil heç həyatda deyil. Dünya böyükdür, mənim isə bu dünya da naməlum unvanlı insanlar axtarmağım absurddur", - fikri Turalı daha da rahatlatmışdı. Uzun illər qisas almaq yükü altında əzilən Tural sanki azadlığa çıxmışdı. İndi o, hüquq təhsilini başqa insanların qisasını almaq üçün istifadə edəcəkdi...

Universitetdə ilk dərs günü Turalda gələcəklə bağlı çox böyük ümidlər yaratmışdı. Onun ürəyində gələcəklə bağlı arzuları çiçəklənmiş, dünya gözünə əvvəlkindən daha rəngarəng görünməyə başlamışdı. Ona elə gəlirdi ki, hamı sevinc içindədir.

Tural ilk dərsdə təsadüfən bir qızla yan-yana oturmalı oldu. Bu günə kimi Turalda qızlara qarşı heç bir maraq olmamışdı. Həmişə evlərində qisas söhbəti, qardaşının qətli ilə bağlı söz-söhbətlər getdiyindən Turalda özünə qapanma, qaraqabaqlıq dünyadan kuskunluk yaratmışdı. Bəzən yaşamaq nəvəsi belə, sonurdu. Dünya ona alaqaranlıq kimi görünürdü. Ona elə gəlirdi ki, təbiətdə boz və qara rəngdən başqa rəng yoxdur. Qəmli olmağa səbəb olmayanda belə, özünü qəmli aparırdı ki, kimsə qardaşının qətlini unutduğunu düşünməsin. Buna görə, nəinki qız, hətta oğlan dostları da yox idi.

Tural daxilində ciddi bir ünsiyyət aclığı keçirirdi. Başqa adamlarla ünsiyyətə böyük ehtiyacı vardı, amma ailə qınağı onu belə ünsiyyətlərdən qaçmağa məcbur edirdi. Digər bir səbəb də ailənin yeganə oğlunu itirmək qorxusu idi ki, Tural az qala hər addımı ilə bağlı evdə hesabat verir, hər anı nəzarət altında keçir, evlə məktəb arasındakı yoldan başqa-başqa heç bir yerə getmirdi. Tay-tuşları kənd içində oynamağa gedəndə Tural evdə tək-tənha oturub ya kitab oxuyur, ya da divanda uzanıb televizora baxırdı. Arada bir ev işlərində anasına kömək edirdi.

Tural boz, ya qara rəngdən başqa rəngdə paltar geyməyi sevmirdi. Qardaşı qətl edilən gündən evlərində hamı belə geyinməyə adət etmişdi. Uzun illər bundan əvvəl baş vermiş hadisənin kədəri, qatil tapılıb cəzalandırılmadığından, ailəni tərk etmirdi. Digər tərəfdən, qanlarının yerdə qalması ailənin hər bir üzvündə utanclıq hissi yaratmışdı. Başqa adamların yanında Tural özünü günahkar kimi aparırdı. Qardaşının qisasını ala bilmədiyindən özünü aciz, bacarıqsız hesab edirdi. Ona elə gəlirdi ki, hamı onu qınayır, biqeyrət hesab edir. Baxmayaraq ki, əslində hadisənin üstündən illər keçdiyindən, kənd camaatının çoxu bu hadisəni unutmuşdu. Amma Turala elə gəlirdi ki, hamı ondan nə vaxt qisaslarını alacağını gözləyir.

*(Ardı var)*

**AZAD**